AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU

*Əlyazması hüququnda*

TURAN AZƏR QIZI HÜSEYNOVA

# NAZİM HİKMƏTİN ŞEİR DİLİNİN LEKSİKASI

**5710.01- Türk dilləri**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

BAKI-2015

Dissertasiya AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Məhəbbət Mirzəxan qızı Mirzəliyeva**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Roza Hüseyn qızı Eyvazova**
filologiya üzrə elmlər doktoru, professor

**Minaxanım Allahşükür qızı Nuriyeva**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** Bakı Dövlət Universiteti
Türk filologiyası kafedrası

Müdafiə "_19___" _05_____2015-ci il tarixdə saat __ -da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən D.01.141 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**filologiya üzrə elmlər doktoru:** **N.F.Seyidəliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Nazim Hikmət XX əsr türk şeirinin ən görkəmli nümayəndələrindən biridir. Onun yaradıcılığı böyük söz tutumu, lüğətinin zənginliyi ilə seçilən şairlərdəndir. Şairin taleyi, tərcümeyi-halı elə qurulmuşdur ki, o, tədqiqatdan kənarda qalmışdır. Ömrü öz vətənində həbsxanalarda keçmiş, yaradıcılığının ən kamil zamanlarını didərgin yaşamışdır. Vətənində bu böyük millət şairinə "millət xaini" damğası vurulmuş, əsərlərinin nəşri, oxunması, təbii ki, tədqiqi üzərində yasaq qoyulmuşdur. Onun yaradıcılığı az-çox sovetlərdə, ən çox da Azərbaycanda öyrənilmişdir[1]. Şairin yaradıcılığına aid bu tədqiqatların hamısı ədəbiyyatşünaslıq baxımından aparılmışdır. Dili, bədii dil xüsusiyyətləri, ümumiyyətlə, diqqətdən kənarda qalmışdır. Bu dissertasiya işi Nazim Hikmətin dilinin öyrənilməsinə həsr olunmuş ilk tədqiqatdır.

Ümumiyyətlə, Nazim Hikmətin dili geniş anlayışdır. Onun şeir yaradıcılığı ilə yanaşı, dəyərli nəsr və dram əsərləri də vardır. Nisbətə fikir versək görərik ki, şairin səkkizcildlik yaradıcılığının ancaq iki cildi şeirlərdən ibarətdir. Bununla belə, Nazim Hikmət dramaturq, nasir-romançı olmaqdan ziyadə daha çox şair kimi tanınır. Buna görə də ilk olaraq onun şeir dilini tədqiqata cəlb edilməsi dilçilikdə aktual problemlərdəndir. Belə ki, Nazim Hikmət dilinin qrammatikası, morfologiyası ilə bağlı maraqlı xüsusiyyətlər vardır. Bütün müasir söz ustaları kimi, Nazim Hikmətin də qrammatika dili bir bədii dil faktı olmaqla ədəbi türkcənin ümumi mənzərəsini əks etdirir. Bunu nəzərə alaraq, şairin şeir dilinin leksikasının tədqiqi elmi baxımdan daha aktualdır. Çünki, Nazim Hikmətin lüğət tərkibi şairin dilinin bədiiliyini tədqiq etmək üçün zəngin material verir.

Bilindiyi kimi, dilin mütəhərrikliyi, müasirliyi ilə ən çox səciyyələnən hissəsi lüğət tərkibidir. Bədii söz ustaları da öz sənətkarlıqlarını məhz sözlə davranışlarında, sözləri üslubi keyfiyyətlərlə yükləmələrində göstərirlər. Beləliklə, Nazim Hikmətin poeziya dilini leksik baxımdan öyrənmək daha aktualdır.

---

[1] Abdullaoğlu A. Nazim Hikmətin pyesləri Azərbaycan tənqidində. Bakı, "Qobustan", 1979, №3. s.23-27.; Babayev A. Bilinsinki, mənəm baxan. Nazim Hikmət-80. Bakı, "Qobustan", 1982, №2, s.5-6.; Əhmədov Ə. Yaşamaq gözəl şeydir qardaşım. Nazim Hikmətin eyni adlı kitabı haqqında. Bakı, "Ədəbiyyat və incəsənət" qəz., 1984, 19 oktyabr.; İbrahimov M. Fırtınaların qoynunda. Nazim Hikmət. Bakı, "Kommunist" qəz., 1978, 20 avqust.; Məlikov A. Nazim Hikməti düşünürəm. Bakı, "Ədəbiyyat və incəsənət" qəz., 1983, 8 iyul.

**Tədqiqatın obyekti**. Dissertasiyanın adından da göründüyü kimi, tədqiqatın obyekti Türkiyə poeziyasının istedadlı şairi Nazim Hikmətin şeir dilinin lüğət tərkibidir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti XX əsr türk şairi Nazim Hikmətin bədii yaradıcılığının dilidir.

**Tədqiqatın metodu.** Dissertasiya statistik, təsviri və müqayisəli metodlar əsasında yazılmışdır. Nazim Hikmətin yaradıcılığı təxminən əlli illik bir zamanı əhatə etdiyindən zaman-zaman dəyişən ictimai şəraitin təsiri dilin lüğət təkamülündə əks olunur. Nazim, bir tərəfdən, əruz vəznindən ayrılır və bu onun dilində izlər buraxır; digər tərəfdən, Nazim rus və fransız poeziyası ilə yaradıcılıq əlaqələrində olur ki, bu da təsirsiz qalmır. Bütün bu inkişaf və təsirlər müqayisəli şəkildə təhlil olunur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi Nazim Hikmətin şeir dilinin lüğət tutumu haqqında təsəvvür yaratmaq olmuşdur. Aşkarladıq ki, həqiqətən şairin zəngin leksikonu vardır. Nazimin türk şeir dilinin qəliz osmanlı dilindən xilas olmasında öz payı vardır. Bu cəhətdən o, sadə türkcədə yazan Məhəmməd Əminin, xüsusilə həm poeziya müəllimi, həm də bilavasitə məktəb müəllimi olmuş Yəhya Kamalın yolunu izləmişdir. Dissertasiyada Nazim Hikmətin dilində tarixi təkamül özünü göstərir. Belə ki, Nazimin leksikonunda Moskva təhsilinəqədərki (1921) dili ilə sonrakı dövr arasında ciddi fərq görünür. İlk yaradıcılıq mərhələsində onun dili geniş kütlənin anlamadığı ərəb, fars sözlərindən uzaqlaşması ilə səciyyələnir. Sonrakı dövrdə onun dilinə rus və Avropa dillərindən xeyli söz daxil olur. Həm də bu Avropa sözləri əvvəllərdən Türkiyə türkcəsində olan ənənəvi leksik vahidlər olmayıb, bilavasitə ruscanın mənimsəyib işlətdiyi Avropa sözləridir. Bu dəqiqdir ki, Türkiyə türkcəsinə keçən ilk rus dili sözləri məhz Nazim Hikmətin dili ilə keçmişdir. Tədqiqat Nazim Hikmətin şeir dilinin siyasi məzmun qazanmasını xronoloji ardıcıllıqla təqdim edir. Bu siyasiləşmə prosesində sovetizmlər adlanan leksik vahidlər xüsusi fəallaşdırıcı rol oynayır. Adətən, şair və yazıçının dilinin tədqiqində leksik statistikaya, mətndən seçilmiş spesifik sözlərin lüğət materialı kimi nümayiş etdirilməsinə əsas diqqət yetirilir. Biz Nazim Hikmətin dilində sözlərin bədii mətləbə xidmət etmək səviyyəsini aşkar etməyi, bununla da şairin dil sənətkarlığını aşkarlamağı tədqiqatımızda əsas məqsəd kimi götürmüşük.

Şairin leksikası üslubi-semantik qatlarla əhatə olunur.

**Tədqiqatın elmi yeniliyi**. Nazim Hikmətin dili ilk dəfə məhz bu dissertasiyada tədqiq olunur. Nazimin şeir dilinin tədqiqi göstərir ki, Türkiyə türkcəsində sərbəst şeir bilavasitə onunla başlanır. Aşkarlanmışdır

ki, Nazim öz sərbəst şeir dilini formalaşdırarkən rus poeziyasındakı futuristlərin dilini örnək götürməklə, fransızların “ağ şeir” (qafiyəsiz) təcrübəsindən də faydalanmışdır. Nazim Hikmət sərbəst şeir dilinə sərbəst şeir nəzəriyyəsini zənginləşdirən xeyli yenilik gətirmişdir. Tədqiqatdan aydın olur ki, Azərbaycan poeziyasında da sərbəst şeirin yaranmasında Nazim Hikmətin rolu olmuşdur. Eyni zamanda, müəyyən edilir ki, öz dilinin bədiiliklə dolğunlaşdırılmasında N. Hikmət Azərbaycan şeirinin tarixi təcrübəsindən məharətlə bəhrələnmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Nazim Hikmətin bədii dilini formalaşdıran mədəni şərait və onun tarix öncəsinin ümumi mənzərəsi;
- Nazim Hikmətin şeir dili mərhələlərlə inkişaf edir; bu dilin sərbəst şeirəqədərki və sərbəst şeir dili mərhələləri var;
- Nazim Hikmətin sərbəst şeir dili siyasi poetik dilin ən tipik nümunələrindəndir;
- Nazim Hikmətin sərbəst şeir dili “ağ şeir” dilinin ahəngdarlığı ilə səciyyələnir;
- Nazim Hikmətin dilində sovetizmlər deyilən xüsusi leksik qat var ki, bu da onun dilinin ictimai-siyasi sərtliyini, təsirediciliyini gücləndirir; hətta tarixi şəxsiyyət adlarından sovetizm kimi istifadə olunur;
- Rus və Avropa sözləri Nazim Hikmətin şeir dilində heç bir müasirində olmayan üslub əlvanlığına malikdir;
- Nazimin leksik semantikasının bədii cəhətdən dolğunlaşmasında sözün fonetikasından üslub faktı kimi müntəzəm istifadə olunur;
- Nazim Hikmətin şeir dilində və ümumiyyətlə, bədii dilində Türkiyə türkcəsində gedən özləşmə leksikasından qəti istifadə edilmir;
- Nazim Hikmətin dilinin anlaşmasına əsla xələl gətirməyəcək dərəcədə “osmanlı dili” deyilən tarixi dil faktları işlənir;
- Bədiiləşdirici əlamət kimi söz, söz birləşməsi, misra və cümlə təkrarından gözlənən və gözlənməyən şəkildə istifadəsində üslub sənətkarlığı diqqətçəkəndir;
- Təşbeh və bədii təyinlərin şeir dilində bədiiləşdirici və siyasiləşdirici imkanlarının nümayiş etdirilməsində şairin ustalığı xüsusi seçilir;
- Bədii dilin melodiyası üçün Nazim Hikmətin xüsusi qafiyəyaratma üsulu var.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti**. Nazim Hikmətin şeir dilinin öyrənilməsi sərbəst şeir poetikası üçün xeyli material verir. Eləcə də şeir dilindən üslub faktı kimi istifadə olunması, dərslik və dərs vəsaitlərinin

yazılmasında tədqiqatçılar bu əsərlərdən mütləq faydalanacaqlar. Ümumiyyətlə, üslubiyyatla bağlı bir vəsait kimi müəllimlər və tələbələr bu tədqiqatdan nəzəri və təcrübi bilik ala bilərlər.

**Tədqiqatın mənbələri**. Mənbə olaraq Nazim Hikmətin Bolqarıstanda (Sofya, Narodna Prosveta) nəşr olunmuş səkkizcildlik külliyyatından, müxtəlif illərdə şairin Azərbaycanda nəşr olunmuş şeir kitablarından, dramlarından istifadə olunmuşdur. Bununla yanaşı, şairin azərbaycanlı dostlarının xatirələrindən, bir sıra görkəmli ədəbiyyatşünas və tənqidçilərin yazılarına, təhlillərinə də diqqət yetirilmişdir.

**Dissertasiyanın aprobasiyası.** Müdafiəyə təqdim olunmuş dissertasiya işi Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsində yerinə yetirilmişdir. Dissertasiya mövzusu ilə bağlı xaricdə (Albaniya, Rusiya) və respublikada keçirilmiş beynəlxalq elmi konfranslarda məruzə olunmuş, elmi məcmuələrdə məqalələr çap olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işin ümumi səciyyəsi, üç fəsil, nəticə və istifadə olunmuş elmi ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, metod və mənbələri, aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Nazim Hikmətin sərbəst şeirəqədərki dilinin leksikası"** adlanır. Bu fəslin "*Nazim Hikmətin ilk yaradıcılığı dövründə tarixi-ədəbi şərait*" adlı birinci bölməsində şairin yaşadığı dövrdə Türkiyə ədəbiyyatında hökm sürən dil prosesləri öz əksini tapmışdır. Şairin yaradıcılığını araşdırmaq üçün ilk olaraq onun yaşadığı mühiti, bu dövrdə türk dilinin və türk ədəbiyyatının hansı səviyyədə olduğunu və hansı problemlərlə qarşılaşdığı təhlil edilmişdir. Onun yaradıcılığının ilk illərindən sonuna qədər istifadə etdiyi şeir şəkillərində dəyişiklik görünür. Buna səbəb şairin öz düşüncə və fikirləri olmaqla bərabər, həm də yaşadığı mühit və dövrün təsiri olmuşdur. Şairin ilk yaradıcılıq illəri Türkiyə ədəbiyyatının "Milli ədəbiyyat" deyə adlandırılan bir dövrünə təsadüf etmişdir. Ümumiyyətlə, bu dövr Türkiyə ədəbiyyatında qısamüddətli fəaliyyət göstərən bir çox ədəbi cərəyanlar fəaiyyət göstərmişdir. Onlar ardıcıllıqla öz yerlərini bir-

birinə vermiş və hər cərəyan keçmiş, cərəyanın əsasında ədəbiyyata yenilik gətirməyə cəhd etmişdir. Onların bəzisi irəli sürdükləri iddiaları həyata keçirməyi bacardıqda uzun müddət Türkiyə ədəbiyyatının aparıcı ədəbi cərəyanı olaraq qalmış, bunu bacarmayanlar isə tənqid olunaraq ortadan qalxmışlar. Məhz "Milli ədəbiyyat"çılar özlərindən əvvəl mövcud olan üç əsas ədəbi cərəyana – *Tənzimat, Sərvət-i Fünun, Fecr-i ati*'yə qarşı çıxmış, həm də əvvəlkilərin əsasında öz yeniliklərini həyata keçirmişlər.

Tənzimat ədəbiyyatının (1860-1895) amalı modernləşmə və yeniləşmə idi. Başda Namiq Kamal olmaqla tənzimatçıların ideyası realist ədəbiyyat uğrunda mübarizə idi. Bu realist ədəbiyyatın işi Divan ədəbiyyatının romantikasını göydən yerə endirmək idi. Bu "enmədə" Divan ədəbiyyatının əcnəbi leksika ilə zəngin olan, bəzən kütləvi anlaşmadan kənarda qalan yüksək üslublu dilini sadə, anlaşıqlı, ancaq ədəbi qrammatika, fonetika ilə (tələffüzlə) kütləviləşdirmək, geniş xalq kütləsinə çatdırmaq nəzərdə tutulurdu[1].

Tənqid hədəfi kimi götürülən Divan ədəbiyyatı və onun dili dərin fəlsəfi ədəbiyyat idi, böyük intellekt ədəbiyyatı idi. Bu ədəbiyyatın həmin XIX əsrdə də istedadlı davamçıları vardı. Buna görə də belə mükəmməl Divan ədəbiyyatının içindən birdən-birə silkinib çıxmaq, deyək ki, XX əsrin əvvəlində Yahya Kamalın dili ilə yazmaq mümkün deyildi. Ancaq bu iş başlanmışdı. Lakin ona müqavimət də göstərilirdi.

XIX əsrin sonunda fransız ədəbiyyatına olan marağın xüsusilə artması o dövr ədiblərini yeni bir cərəyan ərtafında topladı ki, bu da Sərvət-i Fünun (Edebiyat-ı Cedide) (1896-1901) idi. Tənzimatçılar hər nə qədər xalq dilinə yaxınlaşmaq istəyirdilərsə, Sərvət-i Fünunçular bir o qədər uzaqlaşırdılar. Onlar sadəcə aydınlara, ziyalılara, savadlılara səslənirdilər və artıq tənzimatçılar kimi "toplum için sanat" deyil "sanat için sanat" prinsipini özlərinə əsas şüar seçmişdilər. Onlar fransız romantiklərini özlərinə nümunə olaraq götürərək və Tənzimatın uzun zaman mübarizə apardığı ərəb və fars sözlərini daha çox istifadə etməyə başladılar. Türkiyə ədəbiyyatının bu dövrdə yenidən əruza qayıtması və dilin ərəb və fars sözləri ilə yenidən dolması o dövrdə gənc nəsillər tərəfindən çox tənqid olundu. Və ona qarşı olaraq yeni bir cərəyan Fecr-i Ati ədəbi birliyi (topluluk) (1909-1912) yarandı[2]. Fecr-i Aticilər öz ideyalarında Sərvət-i Fünuna qarşı olaraq yaransalar da, öz əməllərində bunları edə bilmədilər.

---

[1] Ercilasun. B. Serveti-fünun`da edebi tenkit. İstanbul, 1994.

[2] Banarlı. N. Sami. Resimli Türk edebiyatı tarihi. II cilt. 2001.

Onlar yenə də dili ərəb və fars sözlərindən uzaqlaşdıra bilmədilər və yenə də əruz vəznini istifadə etdilər. Bu cəhət də onların uzun müddət fəaliyyət göstərmələrinin qarşısını aldı və sanki Fecr-i Atilər Sərvət-i Fünun ilə Milli ədəbiyyat arasında bir körpü rolunu oynayan ədəbi birlik olaraq ortadan qalxdılar.

"Genç kalemler" məcmuəsində Ömər Seyfəddinin "Yeni lisan" adlı məqaləsinin dərc olunmasıyla başlanan Milli ədəbiyyat (1911-1923) cümhuriyyətin elan olunmasına qədər davam etdi. Bu vaxta qədər sadəlikdən, dil aydınlığından çoxları danışmışlar, ancaq onların dedikləri sözdə qalmışdır, əməli olaraq öz yazılarında dediklərinə əməl etməmişlər. Ancaq Gənc qələmçilər dedikləri kimi yazdılar və yazdıqları kimi dedilər. N. Hikmətin yaradıcılığa başladığı ərəfədə Türkiyədə belə bir dil mühiti vardı.

I fəslin ikinci bölməsi "*İlk şeirlərinin dilində milli və alınma sözlərin nisbəti*" adlanır. Şairin, ədibin sənətinin öyrənilməsi, şübhəsiz, onun sözünün, lüğət tərkibinin öyrənilməsindən başlayır. Ədibin lüğət tərkibi iki istiqamətdə, iki istiqamətdə öyrənilə bilər: 1. Sənətkarın dilinin söz tutumu, lüğət ehtiyatı öyrənilir. Bu, bir növ ədibin söz ehtiyatının statistik hesaba alınmasıdır. Həmin istiqamətdə tədqiqat tarixi leksikanın öyrənilməsinə xidmət edir; 2. Lüğət tərkibinin öyrənilməsi şairin, yazıçının üslubunu açmağa, dil sənətkarlığını müəyyənləşdirməyə xidmət göstərir. Bu halda qrammatikanın sərəncamına keçmiş sözün daxili enerjisini, bədii mətləbi, bədii mətndəki psixoloji vəziyyəti ifadə etmək imkanını aşkar etmək əsas məqsəd olduğundan belə tədqiqat ədəbi dil tarixi faktı olur[1].

Dilçiliyimizdə indiyə qədər yazıçı (şair) dilinin, bədii əsər dilinin lüğət tərkibinin öyrənilməsində birinci istiqamətə üstünlük verilmişdir. Bu tədqiqatda isə Nazim Hikmət dilinin lüğət tərkibində tutum, həcm məsələsinə, statistik ricətlərə diqqət yetirilməklə ikinci istiqamət əsas götürülmüşdür. Çünki Nazim Hikmətin lüğətində bədii semantikanın xüsusi gücü var.

Yaradıcılığa yenicə addım atan şair, birinci növbədə, türk şeirinin doğma vəzni olan heca şeirinə üz tutmuşdur. Yəni o, türkün, o cümlədən Türkiyənin kamil fəlsəfi divan şerindən əvvəl türk xalq şeiri, türk folklor şeiri ilə ünsiyyətdə olmuşdur. Bu isə heca şeiri deməkdir. Heca şeiri dilinin aydınlığı, sadəliyi, xəlqiliyi ilə seçilirdi. Şair divan şeir dilinin anlaşılmazlığından şikayətlənir və etiraf edərək yazırdı: "Büyük babam şairdi, ama şiirlerini hala anlamam. Dilini, Osmanlıca dediğimiz, yüzde

---

[1]Hacıyev. T. İ. Azərbaycan ədəbi dilinin tarixi. I cild. Bakı: "Elm", 2012, s. 17.

yetmiş beşi arapça, farsça sözlerle ve arap, fars gramer kaidelerine uygun bir türkçeyle yazardı... anlamıyordum onları[1]". Deməli, "namus nədir, vicdan nədir" düşüncələri ilə şeir yazmağa başlayan şair xalqına, millətinə onun anlayacağı dillə bədii nümunələr təqdim etmək yolunu seçir və bunun üçün də, özünün yazdığı kimi, "heca vəzninin, yəni xalq şeirimizin" dilini örnək alır. Beləliklə də, çox erkən yaşlarında "artık dilim temizceydi, hece vezniyle ve doğru dürüst kafiyelerle yazmasını öğrenmiştim" deyir.

N. Hikmətin aydın, sadə xalq türkcəsində yazmasında başqa bir amilin də rolu var; onun ilk şeir müəllimi türkcəyə "bu dil ağzımda annemin sütüdür" deyən Yahya Kamal olmuşdur. Yahya Kamal "en güzel türkçe misrai söylemeyi, sanatının en asıl ülküsü diye kabul ediyordu[2]".

N. Hikmət bütün əzələləri, ən dərin, ən uca düşüncələri ilə vətənsevərdir, millətsevərdir. Bu milli keyfiyyəti də o, Yahya Kamaldan mənimsəmişdir. Demək, şeir, dil müəllimi Yahya Kamal onun həm də ideya, məslək müəllimi olmuşdur.

Yahya Kamal Nazim Hikmətin ilk şerini redaktə edərək çap etdirmişdi və ona müasir şeir dilinin necə olmasını təlim etmişdi. Nazim Hikmətin öz dediyinə görə, Yahya Kamal, bizim müasir təbirlə, bu şeiri, redaktə etmişdi. "Servilikler" adlı həmin şeir budur:

Bir inilti duydum serviliklerde
Dedim, burada da ağlayan var mı?
Yoksa tek başına bu kuytu yerde,
Eski bir sevgiyi anan rüzgar mı?
Gözlere inerken siyah örtüler,
Umardım ki artık ölenler güler,
Yoksa hayatında sevmiş ölüler,
Hala servilerde ağlıyorlar mı?

Şeirin dilində yalnız savadlıların və az savadlıların yox, hətta savadsızların, Türkiyə köylülərinin anlamayacağı bir dənə də söz yoxdur. Şeir 1916-cı ildə çap olunub. Nazimin şeir müəllimi və ilk redaktoru Yahya Kamalın da bütün şeirləri əruz vəznində olsa da, onun bu şeiri heca vəznindədir – On bir hecalı (6+5 bölgüsü) misralardan ibarətdir. Ümumiyyətlə, əlimizdə olan külliyyatında (8 cilddə "Bütün əsərləri") sərbəst şeirinə qədərki dövrdə cəmi 23 (iyirmi üç) şeiri var ki, hamısı heca vəznindədir. Bunlardan on ikisi 11, onu 14, biri 7 hecalıdır. "Servilikler" şeirinin dilindəki ərəb, fars sözləri bunlardır: *Servilik, rüzgar, siyah, hayat,*

---

[1] Hikmet. N. Bütün eserleri. I cilt. Şiirler 1916-1951. Sofya: Narodna Prosveta, 1967, s. 9.
[2] A bdullazadə A. Şairin poetik üslubu haqqında notlar. Səməd Vurğunun anadan olmasının 70 illiyi. Bakı, "Ulduz" jurnalı, 1976, № 5, s 14.

*hala*. Otuz altı sözdən cəmi beşi ərəb, fars kəlməsidir. Türklərin İslamı qəbul etməsindən sonra yazılı bədii dildə milli və alınma sözlər arasındakı bu nisbət ideal kəmiyyətdir.

Məhz bu yarımfəsildə Nazim Hikmətin sərəbəst şeir öncəsi yazdığı 23 şeirdəki ərəb və fars sözləri əlifba sırasıyla qeydə alınmışdır.

Diqqətçəkən faktlardan biri alınma sözlərin ayrı-ayrı şeirlərdəki kəmiyyət fərqidir. Deyək ki, ikinci şeirində ("Biz ve deniz") altmış altı sözdən on ikisi, dördüncü şeirində ("Mevlana") otuz bir sözdən on ikisi alınmadır. Üçüncü ("Yolcu yolun Şarksa") şeirində isə qırx doqquz sözdən cəmi altısı alınma leksik vahiddir. Hamısı da lirik şeirdir, həzin, kədərli misralardır.

Bu iyirmi üç başlanğıc şeirin ən həcmlisi sonuncudur: "Meşin kaplı kitap". Şeir iki yüz səksən altı sözdən ibarətdir. Bunun altmış doqquzu alınma leksikadır – bu, şeirin lüğətinin iyirmi dörd faizidir. Faiz başqa şeirlərlə müqayisədə bir qədər artıqdır. Bu şeirdə N. Hikməti bir təcrübəsiz ateist kimi, antidin adam kimi danışan görürük. Maraqlıdır ki, şeirin "Meşin kaplı kitap" sərlövhəsinin altında "kitab-i mukaddes" (müqəddəs kitab) sözlərini yazmamış olsaydı, onun oxuduğu kitabı hansısa ateist tərəfindən yazılmış bir əsər kimi, məsələn, Rüşdinin peyğəmbər əleyhüs-səlamın adına ünvanladığı küfr kitabı kimi qəbul edə bilərdik. Deməli, şair bir növ dəliqanlı cəsarəti ilə əlinə qələm almış və ateist bir şeir yazmışdır. Halbuki bir əvvəlki (1920) şeirində Rəbbindən imdat diləyir. Deməli, bu, 1920-ci illər ərəfəsində və 1920-ci illərdə Türkiyədə yaranan poeziyanın dili deyil. Göründüyü kimi, Nazim Hikmətin 1921-ci ildə, Moskvada olarkən yazdığı "Meşin kaplı kitap" şeirinin leksikası öz bədii semantikası ilə həmin dövrdə yaranan Azərbaycan şeirinin dili ilə bir kökdədir, bir müstəvidədir. Bununla bərabər, bu şeirin poetexnikasında, misra quruluşunda, qafiyə sistemində də o dövr sovet ədəbiyyatının, rus şeirinin açıq təsiri görünür. Bu şeir heca vəznində yazılıb, on dörd hecalı misralardan qurulub. Ancaq misralar əvvəldən-axıra on dörd heca quruluşu ilə getmir, ara-sıra misralar yarıya bölünür. Doğrudur, yarıya bölünən misralarda da heca vəzni qalır – bir misra iki dənə yeddi hecalı misraya ayrılır. Bu halda iki yeddi hecalı misra birləşsə, yenə bir on dörd hecalı misranın normal intonasiyası alınar. Ancaq bu yeddiyə ayrılma mexaniki şəkildə baş vermir, onların arasında qafiyələnmə gedir. Bu, prinsipcə sərbəst şeirə doğru şairin ilk addımıdır.

N.Hikmətin sovetlərə gəldiyi zaman rus ədəbiyyatında, sovet şeirində iki modern cərəyan vardı: başında Vladimir Mayakovski duran futuristlər və İlya Selvinski ilə Eduard Baqridskinin yaradıcılıqları ilə

tanınan kontstruktivistlər[1]. Bu nümunələrlə tanış olan Nazim Hikmət sərbəst şeirə meyil göstərir. Forma və məzmun axtarışına başlayır. Özü sonralar yazırdı: "Bu işte ilkönce beni yeni öze göre yeni bir şekil bulmak meselesi ilgilendirdi". Beləliklə, Nazim Hikmətin dili tədrici təkamüllə sərbəst şeirin sərhədinə gəlir. Sərbəst şeirə kor-koranə atılmır, onu heca dilinin içində sınaqdan keçirir, hazırlanır və hecanın, əruzun sistemli qafiyə sənətkarlığına yiyələnib dünyanın modern şeir cərəyanına qoşulur.

N. Hikmətin ilk şeirlərinin dilində Avropa dillərindən mənimsənmiş leksik vahidlərə də təsadüf olunur. Ancaq bu sözlərə rast gəldik:

*Sandal* (yunan) – qayıq. Türkiyə türkcəsində "kürəklə yürüdülən dəniz təknəsi" deyirlər.

*Pala* (italyan) – qılınc növü.

*Korsan* (italyan) – dəniz qulduru.

*Kalyon* (italyan) – yelkənlə və kürəklə hərəkət edən hərbi gəmi.

*Tül* (fransız) – pambıq, ipək və ya sintetikadan toxunmuş zərif parça.

*Anjelüs* (yunan) – xristianlarda katoliklərin duası.

*Balyoz* (yunan) – kumpul.

*Efendi* (yunan) – yüksek hörmət əlaməti müraciət sözü.

Göründüyü kimi, ərəb, fars kəlmələri ilə müqayisədə Avropa dillərindən alınmış sözlər çox azdır. Əvvələn, o şeirlərin yazıldığı dövrdə Avropa sözləri Türkiyə türkcəsində bugünkü dərəcədə ifrata varmamışdı. O biri tərəfdən, N. Hikmət kütləvi anlaşılan sözləri işlədirdi. Əvvəlcə verdiyimiz statistikadan da gördüyümüz kimi, Nazim Hikmətin ilk şeirlərinin dilində türk mənşəli lüğət mütləq üstünlük təşkil edir[2].

II fəsil "**Lüğət tərkibi: məzmuna görə təsnifat**" adlanır. II fəslin "*Nazim Hikmətin şeir dili: lüğət tərkibinə baxışı*" adlı birinci yarımfəslində şairin bu dövrdəki özləşmə hərəkatına münasibəti araşdırılmışdır. Hər bir şairin (yazıçının) leksikonu yaşadığı dövr ədəbi dilinin tərkib hissəsidir. Yəni ədibin dili bir tərəfdən, məktəblinin də, ziyalının da işlətdiyi canlı ünsiyyət dilinə, yazılı və şifahi ədəbi dilə qoşulmaq, o biri tərəfdən, ədəbi dildəki yeniləşməyə, neologizmlər yaradılmasından həm istifadə etməyə, həm də yeni sözlər yaratmağa borcludur. Əlbəttə, hər bir bədii söz adamı neologizm yaratmaya bilər, ancaq bütövlükdə ana dilində gündəlik ictimai-

---

[1] Babayev A. Dünyada Nazim. Nazimdə dünya / Nazim Hikmətin vəfatının 50 illiyi münasibətilə / "Ədəbiyyat" qəz., Bakı, 2013, 17 may.; Məlikli T. Nazim Hikmət Moskvada (1951-1953-cü illər). Bakı, "Azərbaycan", 2011, №3. s. 157-166.

[2] Babayev Ə. Nazim Hikmət sənəti. Nazim Hikmət 90. Bakı, "Azərbaycan"., 1992, №7-8, s. 112.

mədəni tələbatla, elmi-texniki inkişafla bağlı yaradılan yeni sözlərə, o cümlədən başqa dillərdən alınmalara laqeyd qala bilməz.

Bu baxımdan Nazim Hikmətin 1920–1963-cü illərdə (Nazimin ədəbi-siyasi yaradıcılığa başladığı illərdən ömrünün son günlərinə qədərki zamanı nəzərdə tuturuq) Türkiyədə gedən dil prosesində yeniləşmə meylində iştirak edib-etməməsi, özləşməyə münasibəti xüsusi maraq doğurur.

Nazim Hikmətə görə, xalq dili söykənəcəkdir – orada möhkəm dayanmaq lazımdır; xalq dili vətənin torpağıdır, buraya hər toxum əkmək olmaz. Şair görürdü ki, türkcənin torpağına yabancı toxumlar gətirilir, milli, dadlı, şirəli meyvələrin yerinə forması parıltılı, içi çürük, acı, beyni iynələyən, ürəyi bulandıran, türkcə adına qondarma sözlər əkirlər.

Bu baxımdan Nazim Hikmətin şeir dilini oxucu oxuduqda bu sözlərlə qarşılaşır:

-mektepli – okul(çu) yox,
-imtahan – sınav yox:
-tesir – etki yox;
-tabiat – doğa yox;
-cemiyet – toplum, topluluk yox;
-hayat – yaşam yox;
-rehber – öndər yox;
-mağaza – market yox;
-fırka – parti ilə paralel;
-giyim/elbise/paltar paralel;
-mukaddes – kutsal yox;
-neft – petrol yox; və s.

Nazim Hikmətin dilində maraqlı, bir qədər də təəccüblü bir hadisəyə rast gəlirik. Şairin səkkiz cilddən ibarət bütün əsərlərinin dilində, ümumiyyətlə, özləşmə sözünə təsadüf olunmur və birdən ömrünün sonuna yaxın iki şeirində özləşmiş *iyimser* (nikbin) sözü işlədir. Birini 1957-ci ilin yanvar ayında yazdığı *İyimser Pırag* (Nikbin Praqa) sərlövhəsində görürük. Şeirin içində bir yerdə də bu söz işlənmir.

Nazim Hikmət ömrünün sonlarında yazdığı bir məqaləsində bir neçə özləşmiş sözü və bunlardan da hərəsini bir neçə dəfə işlətmişdir: *değişik – müxtəlif* mənasında, *görev – vezife; etki – təsir* mənasında, *toplum – ictimaiyet* mənasında, *ortam – mühit* mənasında, *olanak – imkan* mənasında; *çağsal – müasir* mənasında.

Bu göstərilən sözlərin hamısı müəllifin “Devrimin hizmetinde”[1] adlı bir məqaləsində işlənmişdir. On iki səhifəlik bu məqalə şairin ömrünün sonuncu ilində, 1963-də yazılıb. Özləşmiş sözlərə qarşı əks mövqedə duran, 40 illik yaradıcılığı dövründə dilinə bu sözləri gətirməyən Nazim niyə birdən-birə bu qədər özləşmiş söz işlədib? Əvvələn, göründüyü kimi, bu mətn bədii deyil, elmi-publisist məzmundadır. Nazim şeirlərində olduğu kimi, bədii nəsrdə də özləşmiş söz işlətmir. Əslində Nazim Hikmətin səkkiz cildliyini hazırlayıb, nəsr etdirən Əkbər Babayev şairə yazdığı tərcümeyi-halın son cümləsində bu sirri açır, belə yazır: “Nazim Hikmetin kendi sanat anlayışı üstüne söyledikleri, bazılarını kendi eliyle yazdığı, *bazılarını bana dikte ettiği işte bunlardır*[2]*”.*

Hesab etmək olar ki, bu məqalə şairin səhhətinin problemli son aylarında Əkbər Babayevə diktə olunmuş və o da həmin sözləri mexaniki olaraq müasir ədəbi Türkiyə türkcəsində işlənən qarşılıqları ilə əvəz etmişdir. Bir sözlə Nazim Hikmət özləşmə hərəkatında ifrata varmanın tərəfdarı olmamışdır, bədii dilində, şeir və nəsr dilində həmişə özləşmiş sözlərdən qaçmışdır. Bu mənada Nazim Hikmətin bədii dilinin, şeir, nəsr əsərlərinin dilinin xalq danışıq türkcəsinin norması üstündə duran ədəbi Türkiyə türkcəsinin yolu ilə getdiyini, öz müəllimləri olan Mehmet Eminin, Mehmet Akif Ersoyun, Yahya Kamalın dil ənənəsini davam etdirdiyini görürük.

İkinci yarımfəsil “*Nazim Hikmətin şeir dilində “osmanlıca” leksikası*” adlanır. Türkiyə türkcəsinin və eləcə də başqa ədəbi türkcələrin tarixində ərəb, fars alınmalarının işlənmə dərəcəsində bir ifratçılıq olmuşdur. Ancaq özləşməçilər həmin tarixi ifratçılığın qarşısına başqa, yeni bir ifratçılıq çıxarırdı və unudurdular ki, xor baxdıqları osmanlı dili yabancı dil deyildir, bu, Türkiyə türkcəsinin tarixidir, ədəbi yazılı Türkiyə türkcəsinin qollarından biridir. Əslində Nazim Hikmət bütövlükdə osmanlıcadan yox, onun məhz qəlizliyindən imtina edirdi. Bu gün Türkiyə türkcəsində gündəlikdə işlənən ərəb, fars sözlərinin hamısı osmanlı dövründə işlənib. Buna görə də Nazim Hikmətin dilində o osmanlı sözlərinin işlənməsini nəzərdə tuturuq ki, onlar müasir dil üçün ya arxaikləşib, ya da işlənmə dairəsi daralmış, fəal lüğətdən qeyri-fəal (passiv) lüğətə çevrilmişdir.

*Ahi* (əxi) xalq türkcəsində *kardeşlik*:

---

[1] Hikmet. N. Bütün eserleri. VIII cilt. Roman, hikaye ve yazılar. Sofya: Narodna Prosveta, 1972.

[2] Babayef E. Nazım Hikmetin sanatı. Hikmet. N. Bütün eserleri. I cilt. Şiirler 1916-1951. Sofya: Narodna Prosveta, 1967. s. 23.

*Ahbar* (əxbər): Bu xalq türkcəsinin *haber* (xəbər) kimi işlənən ərəb sözünün cəm şəklidir.

*Tebahhür* (təbaxxür): Bu söz şeirin sərlövhəsində işlənib: *Tebahhür suresi*. Ərəbcə *bəhr* sözündən olub "buxarlanma" mənasında işlənir. Hər şeyin güclü görünüb sonra dağılmasını göstərir.

*Zamir*: Söz ərəbcə *iç üz, niyyət* mənalarına gəlir ki, şeirdə də mənada işlənir.

*Baki* (baqi-əbədi): Bu söz ərəbcə "ölməz", "əbədi" mənalarında olub, əslində o dünyaya, axirətə və cənab Allaha aid sifətdir.

*Telakki*. Ərəbcədə "anlayış" mənasında uyğun gəlir.

*Hadisat*: "Hadisə" sözünün cəmidir. "Osmanlıca"da bu morfologiya ilə işlənib və s[1].

Şairin dilində izafətlər də özünü göstərir, əslində bu izafətlər qrammatik funksiya yerinə yetirmir, leksikləşmiş vahidlər kimi çıxış edirlər. Bir neçə nümunə verək: *Hilkati Adem*. "Adəm övladı" deməkdir. *Ehli salib*: "Bayrağunda salib (haç) bulunanlar. Osmanlılardan 209 sene evvelki tarihte Haçlı seferlerine katılan Hıristiyan ordusu". *Çarh-ı felek*: fələyin çarxı, dünyanın dövranı. *Kanuni-sani*: inkinci qanun. Şeirin sərlövhəsidir. *Abuhayat*: (abi-həyat) dirilik, həyatın suyu. *Tab'i şairane*: Şairanə təb, şairlik ilhamı. *Cemiyyeti-Akvam*: "Akvam" qövm (insan toplusu) sözünün cəmidir. "Cemiyyeti-akvam" milletlerin toplusu, cəmiyyəti demək olub siyasi anlayış ifadə edir.

Təkrar edirik ki, müəllimi Yəhya Kəmalın yolu ilə xalqın anladığı türkcədə yazma yolunu seçən Nazim Hikmət tərcüməyə, müasir oxucuları üçün şərhə ehtiyacı olan bu osmanlıca faktlarını işlədir, ancaq müasir özləşmə hərəkatından kənarda qalır.

Bilindiyi kimi, Nazim Hikmət ilkin yüksək təhsilini Moskvada, Sovet İttifaqında almışdır. Həmin dövrdə (1920-ci illərin əvvəlləri) Rusiyada Oktyabr inqilabı deyilən siyasi-dövlətçilik çevrilişi baş vermişdi[2]. Məhz üçüncü "*Nazim Hikmətin şeir dilində sovetizmlər*" adlı yarımfəsildə şairin işlətdiyi sovetizmlər incələnmişdir. Həmin dövrdə işlənən ideya, məslək mənalı rus sözlərini, ifadələrini N. Hikmət Türkiyə türkcəsinə tərcümə edir və bu tərcümələrin əksəriyyəti kalka mahiyyətində olur, hərfən, mənabaməna çevrilir. Yaxud şair həmin söz və ifadələri sovetlərdə yaşayan türk xalqlarının türkcələrindən hazır götürürdü.

---

[1] Yegin. A. İslami-ilmi-edebi-felsefi yeni lüğat. İstanbul, 1992.

[2] Babayev A. Bilinsin ki, mənəm baxan. Nazim Hikmət-80. Bakı, "Qobustan", 1982, №2, s.6.

Bu söz və ifadələr sovet quruluşu, sosializm ideyası ilə bağlı idi. Ona görə də bu dil nümunələrini şərti olaraq sovetizmlər adlandırırıq. Bu sovetizmlər bir leksik vahiddən bir neçə sözdən, söz birləşməsindən də ibarət olur. Nazimin dilində bir sözdən ibarət belə sovetizmlərə rast gəlirik: *parti, firka, kollektivizm, komünist, proleter, inkilap, kütle, amele, kooperatif, komondan, bolşevik, tesfiyeçi, komsomolka, sosialist...* Sovetizm anlayışı ilə sovetlərin ideologiyasını, gündəlik şüarlarını ifadə edən dil materialı nəzərdə tutulduğundan bu qisim dil materialı söz birləşmələrini, aforistik ifadələri də əhatə edir. Əslində leksik vahidlərdən ibarət olan sovetizmlər cümlədə başqa sözlərlə sintaktik əlaqəyə girərək ətrafındakı sözləri də mənaca siyasiləşdirir, ideoloji məzmun bildirən söz qrupları yaradır. Nazimin siyasi şeirlərinin cümlələri belə söz birləşmələrindən, söz qruplarından təşkil olunur. Bu birləşmələri sovetizmlər sayırıq: *Kışlık saray, kızıl asker, işçi ve köylü sınıfları, Bir Mayıs, şahsi mülkiyet, istehsal aletleri, yarını kuran kahraman, yürüyen cemiyet, tarihin durdurulmaz akışı, sınıfsız cemiyet, işsiz ameleler, kominternin kırmızı eli, Avrupanın çatlayacak göbeği, materyalist beynimiz, bizim şüurumuzun oğlu, cepheden dönen süngüler, karanlığa açılmış gözler, Kızıl Meydan...*

Yeni bədii sənətin yeni dillə, yeni leksikonla yazılmalı olması haqqında Nazim Hikmət həmişə düşünmüşdür[1]. O, əski gül-bülbül şeirinin artıq bu gün bədii zövqü təmin etmədiyini, müasir estetik-ideoloji maarifləndirmə üçün yaramadığını aşkar söyləyirdi.

Nazimin sovetizmləri həm üslub materialı kimi sovetizmlərdir, həm də leksik vahidlər olaraq rusizmlərdir. Şair bəzən sovetizmləri türkcəyə tərcümə edir, bəzən də ruscada olduğu kimi işlədir. Məsələn, Sovetlərdə kommunistlərin baş təşkilat orqanına rusca *Tsentralniy komitet partii* deyirlər. Bu adın ixtisarı belədir: TSKP (rusdilində *ts* birləşməsi bir hərfdir). Burada da *ts* səsi *tse*, *k* səsi *ka* hərfi, *p* səsi *pe* hərfi kimi söylənir: *Tsekape*. *Partiya* sözünü bütöv deyəndə həmin ixtisar belə işlənir: *Tseka partii*. Nazim də şeir dilində həmin rusca deyilişi eynən saxlayır: “Kırk dokuzumda yine Moskovada *Tseka-Parti* konukluğu ve on dördümden beri şairlik ederim” .

SSRİ-də Kommunist (bolşevik) partiyasının tam adı belə verilir: *Vsesoyuznaya Kommunistiçeskaya Partiya (bolşevikov)*. İxtisar şəkli belədir: V.K.P. (B).

Həmin qəliblə Nazim Hikmət *Türkiyə Komünist Partisinin* ixtisarını belə verir: *T.K.P.*

---

[1] Фиш Р. Г. Разум сердца: Лирика Назыма Хикмета. М., Худож. Лит, 1977, с 95.

Yaxud *SSSR* ixtisarı eynən ruscadakı kimi verilir – *Soyus Sovetskix Sotsialistiçeskix Respublik*: Şarklı ve *SSSR* (şeirin adı).

*NEP* (novaya ekonomiçeskaya politika – yeni iqtisadi siyasət), *Erka-pe* (RKP – Rossiyskaya Kommunistiçeskaya Partiya – Rusiya kommunist partiyası) və s. nümunələrdə də sovetizmlər eynən rusizmlər kimi verilir.

Sovetizmlərin içində coğrafi leksika da iştirak edir. Bu leksikada böyük coğrafi mənsubiyyətlə (Şərq, Qərb, SSSR) yanaşı, konkret toponimlər də işlənir: *Rusiya, Petroqrad, Smolnı, Putilovski zavod, Neva nehri*.

Sosializm ideologiyasının, sovetlərin ünlü adamlarının adları da bu sovetizmlərin sırasında özünü göstərir: *Marks, Engels, Lenin, Kirof, Telman, Qorki.*

Dördüncü yarımfəsil "*Nazim Hikmətin şeir dilində rus-Avropa sözləri*" adlanır. Türkiyə türkcəsinə ilk rus sözləri məhz onun şeirləri ilə gəlir. İrəlidə görəcəyimiz kimi, hətta Türkiyə türkcəsində işlənən bir çox Avropa sözlərini Nazim ruscadakı tələffüzü ilə verir. Bilindiyi kimi, əcnəbi sözlərin bir dildən başqasına keçməsi həmin dilləri daşıyan xalqların bir-biri ilə tarixi əlaqələrinin nəticəsində baş verir. Ancaq xüsusi haldır ki, Nazim şeirlərinin (və ümumiyyətlə bədii və publisist əsərlərinin) dilində rus sözlərinin işlənməsi Türkiyə və Rusiya dövlətlərinin, yəni türk və rus xalqlarının siyasi, mədəni, iqtisadi əlaqələri ilə deyil, bilavasitə Nazimin Rusiya ictimai mühitində şəxsi-fərdi iştirakı ilə bağlıdır[1].

Nazim Hikmətin dilindəki rusizmlər də iki qismə ayrılır: 1) bədii dildə üslub faktı, üslub materialı çərçivəsində qalanlar; 2) sovet dövlət idarəçiliyi, sosializm deyilən idarə üsulu ilə bağlı söz və terminlər. Birinci qəbildən olan rusizmlər heç bir türk şairinin, yazıçısının dilində işlənmir. Bu sözləri Nazim mətbuatdan, rus yazı dilindən almır, gündəlik ünsiyyətdə, küçədə danışanların dilindən götürür. Bunlar rusların gündəlik ünsiyyət dilinin koloritli, rus cəmiyyətini səciyyələndirən sözlərdir. Ancaq və yalnız Nazimin bədii dilində qalır, onun bədii dilinə məxsusdur, türk (Türkiyə) ədəbi dilinə daxil olmur.

Məişət sözlərindən olan rus sözlərinə bunları göstərə bilərik: araq (vodka) – *samaqonka* şəklində işlədir, *haraşo, tovariş, matuşka, pomeşçik* (mülkədar), *mujik, çort vazmi.* Elə hala rast gəlinir ki, rusca bütöv cümlə verir – deyək ki, iki sözdən ibarət olur, ancaq sözlər cümlə təşkil edir:

---

1 Меликов Т. Назым Хикмет и новая поэзия Турции. АН СССР, Ин.-т Востоковедения. М., Наука, 1987. с. 125.

*Köylü çocuklar bağrışarak düşüyor peşimize: "Day gazet! Day gazet! Day gazet! Day!..."*

Təkcə rus sözlərini deyil, Nazim hətta Türkiyə türkcəsində işlənən Avropa sözlərinin əksəriyyətini məhz bu ilk yaradıcılığı dövründə rus dilindən götürdü. Onun siyasi leksikasının böyük qismi SSRİ-də dəbdə olan və geniş təbliğ olunan marksist-leninçi deyilən fəlsəfə ilə bağlıdır: *materiyalizm, dialektik materiyalizm, proleter, proleteriya, matrialist beyin.* Bunlar poeziya sözləri deyil, ancaq bunların vasitəsilə ədib siyasi mətn yaradırdı.

Nazim Hikmətin müxtəlif semantik qruplardan olan rus-Avropa mənşəli siyasi leksikonunun təxmini siyahısı məhz bu yarımfəsildə göstərilmişdir.

"*Nazim Hikmətin şeir dilində Şərq onomastikası*" adlı beşinci yarımfəsildə şərq mənşəli sözlər incələnmişdir. Şərq mənşəli onomastik leksika Nazim Hikmətin dilində geniş yer tutur və Avropa mənşəlilər kimi mühüm üslubi yük daşıyır. Bunların da içində siyasi yüklü onomastik isimlər var: *Çin, Korey, Bakü, Dağıstan, Kafkaz, Asya, Şirvan...*

Söhbət təkcə məkanın hansı qitədə yerləşməsindən getmir, həm də onu bildirən sözün rusca, ya hansısa Avropa və ya Asya dillərindən birində yox, məhz türkcə işləndiyi kimi verilməsindən gedir. Məsələn, ruscadakı kimi *Kitay* yox, məhz türkcədəki kimi *Çin,* yaxud ərəbcədəki kimi *Cəbəllüt-tarık* yox, türkcədə deyildiyi kimi, *Ümit burnu* (Azərbaycan türkcəsində də belədir) verilir.

Avropa antroponimlərində olduğu kimi, Şərq antroponimlərində də ciddi ədəbi-ictimai məqsəd izlənir[1]. Avropa mənşəli *Lenin, Marks, Karl Libkinext* kimi məşhur isimlərlə yanaşı, *Recep, Hasan, Süleyman, topal Yunus, Hatçe* kimi adi şərqli insan adları, işi, xidmətləri ilə adı tarixə düşməmiş insanların adları bədii obraz, ədəbi surət kimi işlənir. Əlbəttə, Nazim Hikmətin şeir dilində baş onomastik isimlər *Memetle Münəvvərdir.* Memet, onun yeganə oğlu sadəcə övlad deyil, qadını, yeganə oğlunun anası Münəvvərlə birlikdə başsız – atasız və ərsiz bir ailənin kədər rəmzidir ki, o da böyüyüb vətən anlayışına bərabər olur:

*Ağaçlar duruyor, eski sıralar ölmüş.*
*"Park Boris" "Hürriyet parkı" olmuş.*
*Sade seni düşündüm kestanenin altında,*
*sade seni, yani Memedi,*
*sade seninle Memedi, yani memleketimi...*

---

[1] İsmayılov A. Nazim Hikmət. Həyat və yaradıcılıq salnaməsi. Bakı: "Yazıçı", 1990, s. 251.

Altıncı yarımfəsil "*Nazim Hikmətin şeir dilində "köylü" (kəndli) leksikası*" adlanır. Bu yarım fəsildə şairin dilində müasir siyasi, fəlsəfi-elmi leksikonla yanaşı, bütövlükdə canlı danışığın içi, necə deyərlər, "köylü" dili, ana dilinin qat-qat geniş mənzərələrinin də necə əks olunduğunu görürük. O, şeir dili üçün xarakterik olmayan siyasi məzmunlu xüsusi və ümumi isimləri işlətməklə yanaşı, bir növ siyasi leksika ilə köy leksikasını birləşdirib yeni bir şeir dili yaratmışdır. Bir tərəfdən, *çıplak ayakta çarık, ihtiyar katır, hasta öküz*, o biri tərəfdən materialist *kafa, romantik, buhar, elektrik, makinalar* kimi müxtəlif məzmunlu ifadələr bir mətndə əl-ələ verib şeirin ideyasını canlandırmışdır. O, bir gün köyün, köylünün də oyanacağına ümid edir və maraqlıdır ki, onun köy leksikonunda siyasi üslub yükü olsa da bir səmimilik var. Onun şair düşüncəsinə görə köy nə qədər siyasiləşsə də, nə qədər sənayeləşsə də, hətta şəhərlərdəki kimi avropalaşsa da, yenə köydür, safdır, Anadolunun özüdür. Hətta vəsiyyətində də belə deyir: "*Yoldaşlar, nasip olmazsa görmek o günü, ölürsem kurtuluştan önce yani, alıp götürün, Anadoluda bir köy mezarlığına gömün beni*".

III fəsil "**Nazim Hikmətin leksikası üslub müstəvisində**" adlanır. Bu fəslin birinci yarımfəslində "*Nazimin təşbehi və onu ifadə edən sözlər*" incələnmişdir. Nazimin dilindəki qeyri-adi təşbehləri ya ilk dəfə o işlədib, daha doğrusu yaradıb, ya da təşbehi ifadə edən sözlərin bu məqama gətirilməsi məhz ondan başlamışdır. (Məsələn: tabut-beşiyə bənzədilməsi). *tabut* kimi məşum bir isim *beşik* qədər məsum varlıq kimi qəbul olunur. Ümumiyyətlə, Nazim öz şair "mən"ini, öz obrazını təşbehə çevirəndə həmişə bədiiliyi kədər, həzinlik üstündə kökləyir[1]. Ancaq ümidsizləşdirmir, insanda tərki-dünyalıq yaratmır; insanı düşündürür, insanı özünə çəkir, səmimiyyəti ilə insanı öz ideyasına bağlayır.

*Sen şimdi yalnız saçımın akında,*
*infarktında yüreğimin,*
*alnımın çizgilerindesin memleketim...*

Bundan gözəl, bundan mükəmməl bədiiliklə mənəvi Türkiyəni əyani göstərmək olmaz – Nazimin cismindəki ağ saç, ürəyindəki infarkt, alnının qırışları Türkiyənin sevgisinin, məmləkət dərdinin qoyduğu izlərdir, əyani şəkildə gözlə görünən fiziki-cismani relyefdir.

Nazim Hikmətin təşbehlərində onun söz sənətindəki kamilliyi bir daha görünür. Təşbehlərdə ya frazeoloji birləşmələrin tərkibində, ya adi qrammatik əlaqələnmələrdə iştirak edən leksik vahidlərin mətni

---

[1] Adilov M. Sənətkar və söz. Bakı, Yazıçı, 1984, s. 92.

bədiiləşdirməsində Nazimin sözlərin içindəki semantik ehtiyatı görməsi və yeri gəldikcə ona əlavə semantik yük yükləməsi şairlik sənətində böyük söz ustalığı deməkdir.

İkinci yarımfəsil "*Sözün təkrarı ilə Nazim dilə nə verir*" adlanır. Nazim Hikmətin şeirləri təkrarın ən çox işləndiyi bədii mətnlərdəndir. Nazim təkrarı sözün səsindən başlayır, bu işi hecanın üstündə də edir, cümlə-misralarda söz kompleksinin təkrarına qədər gəlir. O, sözdəki anlayışı oxucunun düşüncəsində təkrar etməklə həmin anlayış haqqındakı biliyi dərinləşdirməyə, səs, heca, söz və ya cümlə-misralardakı biliyi, məlumatı, emosiyanı yaddaşa həkk etməyə çalışır.

Onun şeirlərində leksik və qrammatik paralelizm təkrarın bir növü kimi işlənir, yaxud sadəcə sintaktik paralelizm – eyni sintaktik qəlib təkrar olunur. O, sözün təkrarı ilə onun məna çəkisini artırır – elə bil bir sözü bir neçə söz olur; elə bil eyni sözə qat-qat məna yüklənir. Əslində bir əlamətin çoxluğunu, ya azlığını bildirmək üçün sözün təkrarı danışıq dilindən gəlir. Sərbərt şeirin modernist dilinə belə adi danışıq elementini gətirməklə Nazim Hikmət bədii dildə quru, sxematik materialdan qaçır. Maraqlıdır ki, təkrar həm artmağı bildirir:

İçtik çamurlu sularını Dağıstan istasyonlarının.
*Sıcak, sıcak, sıcak!*
Kumun ufkunda erimiş kurşun gibi Hazer denizi!
*Sıcak, sıcak, sıcak!*

Həm də təkrar kiçilməyi ifadə edir:

Kadınım Breste kadar benimle geldi,
indi tirenden peroda kaldı,
*ufaldı, ufaldı, ufaldı,*
uçsuz bucaksız mavilikte buğday tanesi oldu.

Hər iki halda mətləbə şiddət verir.

Üçüncü yarımfəsil "*Sözün melodiya yükü. Qafiyə*" adlanır. Nazim yeni dövrün, yeni bədii intonasiyanın şairi kimi, öz təbiri ilə desək, *qocaman* bir vəzni elastik şəklə salır, onun əski vəzn aparatında istədiyi musiqini ifa edir. Nazim Hikmət öz oxucusu ilə ahəngsiz, musiqisiz dillə danışmaqdan narahat olub. Amma sərbəst şeirin ölçüləri ilə hesablaşmalı idi. Bunun üçün o ritm, melodiyadan istifadə etdi. O, sərbəst şeirdə yazsa da ən çox qafiyə işlədən sərbəst şeir şairi olub, ancaq saf qafiyələri, çox harmonik qafiyələri də var: *arık-sarık-çarık.*

*ağzı gemli,*
*eli*
*kalemli*

*efendiler*"

– bu misraları şair qafiyə olsun deyə bölmüşdür.

Sonuncu yarımfəsil "*Söz bədii təyin yerində*" adlanır. Nazim Hikmətin şeir dilində bədiiliyin dərəcəsini göstərən əsas faktorlardan biri təyindir. O, şeir dili üçün xarakterik olmayan sözləri şeir dilinə gətirib amma bununla bərabər külli miqdarda bədii təyinlər işlədib. Nazimin şeir dili quru, şirəsiz qrammatika deyil, türk şeir dili tarixində *Nazimin dili* kimi yer tutan bədii dil nümunəsidir ki[1], onun nə olduğunu bədii təyinlərində də görürük. Məsələn, *toprak yüzlü rençper*; *Döğüşeceğim, senin mukaddes karnın doyana kadar*. Burada təyinə şair kinayə yükləmişdir.

Şair cinayətin "böyüklüyü" ucalığı rəmz sayılan Eyfel qülləsinin hündürlüyü ilə müqayisə olunur:

O duvarın dibinde
Bizimkilerin
*Eyfeller gibi kemikleri* yükseliyor.

Dissertasiyanın "Nəticə" hissəsində aşağıda öz əksini tapan elmi, nəzəri müddəalar ümumiləşdirilmişdir:

**1**. Nazim Hikmət əruzun yüksək sənətkarlığını gördü, ondan öyrəndi, ancaq onun anlaşılmazlığına görə heca vəzninin dilini seçdi. Heca şeirinin milli vəzn olaraq kütləvi anlaşıqlığı onu təmin edirdi. Heca şeiri türkcənin doğma vəzni olduğu üçün heca şeirinin dilində, leksika və qrammatikasında aydınlıq mühüm göstərici kimi diqqəti çəkirdi. Nazim Hikmət dil aydınlığı yolunda Gənc qələmlərdən gələn milli təmizləmə hərəkatına qoşulur. Doğrudur, ənənəvi türk heca şeirində də çoxlu ərəb və fars sözləri işlənmişdir. Bunu istər Azərbaycan ədəbiyyatında (Aşıq Qurbani, Miskin Abdulla, Sarı Aşıq və s.), istər Türkiyə heca poeziyasında (Yunus Əmrə, Qaracaoğlan və başqaları) aşkar görürük. Ancaq faktların göstərdiyi kimi, şeir dilindəki bu ərəb, fars sözlərinin hamısı xalqın gündəlik ünsiyyətində işlənən leksik vahidlərdir. Türk ədəbiyyatşünaslığında söyləndiyi kimi, bu heca şeirində əsrlərin süzgəcindən keçmiş bir Osmanlı-türk səsi duyulur. Yəni bu ərəb, fars sözləri artıq semantik baxımdan da, fonetik səslənməsinə görə də türkcələşmiş görünür. Nazim Hikmətin heca dilində də türk xalq şeirinin ənənəsindən gələn bu xüsusiyyətlər əsas tutulur.

**2**. Heca vəznində Nazimin dili ahəng, qafiyə sənətkarlığına yiyələndi. Əslində, N. Hikmət heca şeirlərində istedadlı bir şair kimi formalaşmışdı. Əgər bütün yaradıcılığı boyu bu vəznlə yazsaydı, Türk heca

---

[1] Тверской А. Песня над Босфором. Рассказы о Назым Хикмете. М. 1959, с. 28.

şeirinin məsələn, Səməd Vurğun kimi böyük bir nümayəndəsi ola bilərdi. Müqayisə nəzəri ilə baxılsa, Nazim Hikmətin bu şeirləri sənətkarlıq, psixoloji təsir cəhətindən Səməd Vurğunun 1920-ci illərdə yazmış ilk şeirlərindən güclüdür. Ancaq Nazim Hikmətin ilk siyasi, ictimai təlimi onun dünyagörüşünü elə hazırladı ki, o, poetik axtarış yoluna düşdü, şeiri siyasi təlim vasitəsi kimi görmək istədi və hecanın dil xəlqiliyi onu əruzdan uzaqlaşdırdığı kimi, sərbəst vəznlə tanışlıq da hecadan uzaqlaşdırdı. Bu uzaqlaşdırmanın səbəbi Nazimin məsləki, milli düşüncəsi, şairlik sənəti ilə xalqına xidmət, vətəni uğrunda insanları şeirlə səfərbər etmək istəyi oldu. O bu məsləki, istəyi gerçəkləşdirmək imkanını sərbəst şeir dilinin siyasi sərtliyində, insanlara birbaşa təsir edən tribuna intonasiyasında görürdü. Və öz poeziya dili üçün sərbəst şeirin ifadə vasitələrini əsas götürdü. Sərbəst şeirin lüğət materialı, təşbeh sistemi, misra və cümlə yığcamlığı türk şeir tarixi üçün yeni idi. Müasir ideya döyüşündə bu yeni şeir dilinin təsirediciliyi onun ürəyincə idi. Beləliklə, Nazim Hikmət təkcə Türkiyə poeziyası üçün deyil, bütövlükdə türk şeirində sərbəst şeir dilinin yaradıcısı oldu. Bununla da Nazim Hikmət türk ədəbiyyatına yeni siyasi şeir dili gətirdi. O, məntiqi vurğunu fəallaşdırdı. Adi halda 7-8-11 hecalı misralardakı bir məntiqi vurğunu çoxaltmaq üçün heca vəznli bir misranı bir neçə sərbəst şeir misrasına çevirdi və hər misraya ayrıca vurğu saldı. Hətta bəzən çoxhecalı bir sözü bölüb iki misra elədi və bir söz iki vurğu qəbul etdi. Bu yolla N. Hikmət siyasi poetik dilin bədii semantikasını daha da gücləndirmiş oldu.

**3**. N. Hikmət türkcə siyasi şeir dili yaradarkən Türkiyə türkcəsini bir bütöv kimi götürürdü. O, Türkiyə türkcəsinə ənənəsi tarixin dərinliklərindən gələn bir kamil ədəbi dil kimi baxırdı. Cümhuriyyət dövründə klassik türk yazılı dilinə bir növ ögey münasibət bəslənirdi. Və ona "Osmanlı dili" damğası vurularaq, az qala, ondan imtina edirdilər. Nazim Hikmət siyasi şeir dilinin leksikası kimi "Osmanlı dili" deyilən həmin Türkiyə türkcəsinin materialından istifadə edirdi. Əlbəttə, şair bu osmanlıcaya üz tutarkən onun ənənəvi qəlizliyini kənara qoyur. Ona ancaq lazım gəldikdə, siyasi semantikanın ifadəsinə aktual yardımçı olduqda müracit edir, bədii dilin xəlqiliyinə, kütləvi anlaşmasına xələl gətirmirdi.

**4**. Türkiyə türkcəsinin bütövlüyü dedikdə Nazim Hikmət xalqın işlətdiyi, ya gündəlik ünsiyyətdə, ya yazılı və şifahi ədəbiyyatın dilində gördüyü anlaşılan lüğəti nəzərdə tuturdu. Yaxud yeni söz yaradılırsa, ənənəvi söz yaradıcılığının əsasında düzələn nümunələri qəbul edir; yəni təbii söz yaradıcılığını qəbul edir, süni, uydurma sözləri rədd edirdi. Əslində bu yeni "yaradıcılığı" bir növ əski osmanlıçılığın yeni təzahürü

sayır, çünki bu yeni sözlər də əski osmanlıca kimi anlaşılmırdı. Yəni prinsipcə bu şəkildə klassik osmanlıcanı öyrətmək olar. Bu yeni süni sözlər tədris vasitəsilə məktəblilərə öyrədilir, onların yaddaşına həkk olunurdu. N. Hikmət də deyir ki, öyrətmək öyrətməkdir, gəlin onda klassik osmanlıcanı məktəblilərimizə tədris edib, Füzulini, Bakini, Nabini, yəni bügünkü türklərin ulu babalarını onlara oxudaq. Bu mənada N. Hikmət Türkiyə türkcəsində 1920-ci ildən başlanan fəal özləşmə məhsulu olan lüğət vahidlərinə tam leqeyddir. Deməli, şair özləşmə leksikasını Türkiyə türkcəsinin tarixi sisteminə daxil etməyi zərərli hadisə sayır. N. Hikmətin cavan Vaqif Səmədoğluna dediyi bu sözləri fikrimizə bir dayaqdır: "Öz dilinizdə danışın. Dilinizi qoruyun. Azərbaycan türkcəsi təmizdir, safdır, şirindir[1]". Təbii ki, Nazim bu dili qorumaq tövsiyəsində, birinci növbədə, Türkiyədə türkcənin öz tarixindən və müasir türkcələrdən uzaqlaşma yaradan özləşmədən ibrət götürməsini nəzərdə tuturdu. "Azərbaycan türkcəsi təmizdir, safdır" deyəndə də məhz həmin ideyanı vurğulamış olur.

**5**. Nazim Hikmətin sərbəst şeir dilinin siyasi məzmun qazanmasında rus sözlərinə və ruscada işlənən Avropa sözlərinə geniş yer verməsinin xüsusi üslubi mövqeyi var. Şairin dilindəki bu leksik nümunələr göstərir ki, şairin işlətdiyi rus və Avropa sözləri adətən baş verdiyi kimi, mədəni, siyasi, iqtisadi şərtlərlə bağlı yaranan dillərarası əlaqələrin nəticəsi deyil, bilavasitə Nazim Hikmətin özünün Rusiyada keçən yaradıcılıq dövrünün fərdi mənimsəmə məhsuludur. Türkiyə türkcəsindən ədəbi leksikonla yanaşı canlı xalq dilindəki gündəlik məişət sözlərindən, hətta loru dil materialından istifadə etdiyi kimi, rus sözlərini də bu tərzdə işlədir.

**6**. Dilinin leksik tədqiqi göstərir ki, Nazim Hikmətin orijinallığı ilə seçilən, ona qədər müqayisə faktına çevrilməmiş təşbehləri var (*kocaman beşik* və *çocuk tabutu* kimi). Eyni dərəcədə orijinallıq sözlərin bədii təyin yerində işlənməsində görünür.

Söz, ifadə, misra təkrarları N. Hikmətin dilində heç kəsdə olmayan dərəcədə üslubi zənginliyə malikdir. Nazim Hikmətdə, ümumyyətlə, sərbəst şeir dili üçün səciyyəvi olmayan ritm, melodiya diqqəti çəkir və onun şeir dili müntəzəm qafiyələrin işlənməsi ilə səciyyələnir.

---

[1] Səmədoğlu V. Nazim Hikmətlə üç görüş. Bakı, "Ədəbiyyat" qəz., 2014 5 dekabr.

Tədqiqatın əsas məzmunu aşağıdakı elmi məqalə və tezislərdə öz əksini tapmışdır:

**1.** Nazim Hikmətin dilində təzadların ifadəsi (“həyat” və “ölüm”)., Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. I cild. Bakı-2013. s. 295-296.

**2.** Azərbaycan sərbəst şeir dilinin yaranmasında Nazim Hikmətin rolu., Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları. 1-4 may Bakı-2013. s. 244-245.

**3.** Nazim Hikmətin dil mühiti., Tədqiqlər.Bakı-2013, №1. s.150-158.

**4.** Türkiye Türkçesinde Rus Avrupa kelimelerinin kullanılması., VIII. Uluslararası Büyük Türk Dili Kurutayı. 25-28 Eylül Tiran-2013. s. 34-41.

**5.** Nazim Hikmətin dilində sovetizmlər. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı-2014. №4(92). s. 96-103.

**6.** Sözün təkrarı ilə Nazim dilə nə verir., Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı-2014. №2(90). s. 53-60.

**7.** Nazim Hikmətin dilində kəndli (köylü) leksikası., Sələflər və xələflər I Beynəlxalq simpoziumunun materialları. 22-24 oktyabr Bakı-2014. s. 510-514.

**8.** Nazim Hikmətin dili: sərbəst şeirəqədərki dilinin leksikası., Dilçilik İnstitutunun əsərləri. Bakı-2014. №1. s. 88-98.

**9.** Sözün melodiya yükü. Qafiyə., Filologiya məsələləri. Bakı-2014. №7. s. 282-289.

**10.**Слово как художественное определение в поэтическом языке Назыма Хикмета., Вестник Пятигорского государственного лингвистического университета. 2015. №1.

**Т. А. ГУСЕЙНОВА**

# ЛЕКСИКА ЯЗЫКА СТИХОТВОРЕНИЙ НАЗИМА ХИКМЕТА

## РЕЗЮМЕ

Первая глава диссертации называется **«Лексика языка Назима Хикмета до периода свободного стиха»**. В первом разделе данной главы под названием *«Историко-литературная обстановка периода раннего творчества Назима Хикмета»* нашли отражение процессы, которые происходили в турецкой литературе в период жизни поэта. Второй раздел данной главы называется «Соотношение исконных и заимствованных слов в языке ранних стихотворений». Нет сомнений, что изучение творчества поэта, писателя начинается с изучения его слова, словарного состава. Именно в этом разделе в 23 стихотворениях Назима Хикмета, написанных ранее формы свободного стиха, арабские и персидские слова выявлены и зафиксированы в алфавитном порядке.

II глава называется ***«Словарный состав: классификация по содержанию».*** В первом разделе II главы, называемой «Язык стихотворений Назима Хикмета: взгляд на словарный состав» исследуется отношение поэта к происходящему в тот период процессу действенной самостийности. В других разделах данной главы последовательно исследуются «османская» лексика, советизмы, русские и европейские слова, восточная ономастика, деревенская лексика в языке стихотворений Назима Хикмета.

III глава диссертации называется **«Лексика Назима Хикмета с точки зрения стилистики»**. В этой главе исследуются сравнения, эпитеты, употребляющиеся в языке поэта, а также новые формы выражения, привнесенные им в язык стихотворений с помощью повторов.

В заключении можно прийти к выводу, что лексика стихотворного языка Назима Хикмета богата материалами турецкого языка, именуемого «османским языком». Однако в этот период поэт не пользовался словарными единицами, являющимися результатом действенной самостийности. Вместо этого, с целью придачи политического содержания язык его свободного стиха изобилует русскими словами и словами, заимствованными русским языком из европейских языков.

Изучение стиля языка Назима Хикмета показывает, что у него есть сравнения, отличающиеся оригинальностью и не являющиеся фактом сопоставления до него.

**T. A. HUSEYNOVA**

# LEXICS OF LANGUAGE OF NAZIM HIKMET'S POEMS

## SUMMARY

The first chapter is entitled "The lexics of Nazim Hikmet's language before the period of free verse". In the first section of this chapter entitled **"Hirstorical-literary condition of the period of Nazim Hikmet's early activity"** have been reflected the processes occurring in Turkish literature in the period of the poet's life. The second chapter is entitled "The ratio of native words and borrowings in the language of early poems". Undoubtedly that the investigation of the poet's or the writer's activity should begin from the investigation of his words, of his vocabulary stock. Just in this section have been revealed and have been fixed in alphabetical order the Arabian and Persian words from 23 Nazim Hikmet's poems written before the period of "free verse". One of the interesting facts is the difference in usage of borrowings in separate poems.

The second chapter is entitled **"Vocabulary stock: the classification according to the content"**. In the first section entitled "The language of Nazim Hikmet's language: a view on the vocabulary stock" have been investigated the poet's attitude to the process of acquiment of originality occuring at that period. In other sections of this chapter in consecutive order are investigated the "Ottoman" lexics, sovietizms, Russian and European words, onomastic lexics, villager's lexics in Nazim Hikmet's poems' language.

The third chapter is entitled **"Nazim Hikmet's lexics from stylistic point of view"**. In this chapter have been investigated comparisons, epithets used in the poet's language and also new forms of expression which are introduced in his poems by means of repetitions.

In the result we come to the conclusion that Nazim Hikmet's poems' lexics is rich by materials of the so called of "Ottoman language" of Turkish in Turkey. But at that period the poet did not use lexical units being the product of active process of acquiment the originality. Instead of them his free verse poems are rich by Russian words and words borrowed by Russian from European languages in order to impart them the political content. The research of Nazim Hikmet's language from stylistic point of view shows that he uses the comparisons which are distinguished by originality and are not the facts of comparison before his poems.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЯЗЫКОЗНАНИЯ имени НАСИМИ**

***На правах рукописи***

**ТУРАН АЗЕР гызы ГУСЕЙНОВА**

# ЛЕКСИКА ЯЗЫКА СТИХОТВОРЕНИЙ НАЗИМА ХИКМЕТА

**5710.01 – Тюркские языки**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологическим наукам**

**БАКУ-2015**